Heydər Əliyev - 101

UOT 94(479.24)

SƏİDƏ QULİYEVA
Bakı Dövlət Universiteti,
Dünya azərbaycanlıları: tarixi demoqrafiya ETL, dosent
saidaquliyeva@bsu.edu.az
ORCİD İD: 0000-0003-4320-3425

HEYDƏR ƏLİYEVİN ERMƏNİ FAŞİZMİNƏ QARŞI MÜBARİZƏSİ: İNSAN AMİLİ VƏ GENEFONDUN QORUNMASI*

DOI: https://doi.org/10.36719/2708-065X/105/54-58

Məqalənin əsas məqsədi görkəmli dövlət xadimi Heydər Əliyevin erməni faşizminə qarşı mübarizədə insan amilinə xüsusi əhəmiyyət verməsini araşdırmaqdır. Bunun üçün genefondun qorunması və müharibə nəticəsində yaranan demoqrafik problemlərin həlli istiqamətində dövlət siyasəti tədqiqata cəlb olunmuşdur. Əldə edilən materiallar əsasında belə qərara gəlinir ki, Heydər Əliyev tərəfindən həyata keçirilən tədbirlərin davam etdirilməsi nəticəsində Azərbaycan regionda lider dövlətə çevrilmiş və Qafqazda erməni faşizmi məhv edilmişdir.

Açar sözlər: Heydər Əliyev, Azərbaycanın əhalisi, Azərbaycan ordusu, erməni faşizmi, Azərbaycan xalqının mübarizəsi, əhali artımı, tarixi demoqrafiya, genefondun qorunması.

Giriş. Dövlətin insan resursları onun əsas gücü hesab edilir: əmək potensialı onun iqtisadi qüdrətini, ordusu isə hərbi gücünü göstərir. Əhalinin artımı ordunun sayının da artımı deməkdir. Görkəmli dövlət xadimi Heydər Əliyev güclü dövlətin qurulması məqsədilə sağlam ideologiyaya və sağlam vücuda sahib gənc nəslin yetişdirilməsini vacib hesab etmişdir. Eyni zamanda, erməni faşizminə qarşı mübarizənin təşkilində insan amilinə mühüm əhəmiyyət vermişdir. Sağlam və savadlı insan yetişdirilməsi bütün sahələrdə mübarizənin təşkili üçün əsas amil olmuşdur.

Erməni faşizminə qarşı mübarizədə insan amili, əhalinin və ordunun sayı ciddi faktordur. Bu mövzu elmi baxımından aktuallıq kəsb edir. Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin ordu quruculuğu Azərbaycanın elm ictimaiyyəti tərəfindən hərtərəfli təhlil edilmişdir [8, 78-94; 12; 13 v.d.]. Bu baxımdan biz əsas diqqəti insan amilinə və genefondun qorunması istiqamətində görülən tədbirlərin tədqiqinə yönəldəcəyik. Çünki zəngin dövlətçilik təcrübəsinə mail olan Heydər Əliyevin müharibənin yaratdığı demoqrafik böhrandan çıxış üçün həyata keçirdiyi tədbirlərin və mühüm nəticələrin ayrı-ayrı mövzular üzrə araşdırılmasının erməni faşizminə qarşı mübarizənin kompleks tədqiqində mühüm əhəmiyyəti vardır.

Genefondun qorunması və Atəşkəs müqaviləsi. Müstəqilliyin ilk illərində başlayan müharibənin aktiv hərbi fazası qısa müddətdə Azərbaycanda ciddi demoqrafik böhrana səbəb olmuşdu: ilk dövrdə dövlətin qarşısını ala bilmədiyi bu proseslər ərazilərin erməni hərbi birləşmələri tərəfindən işğalı ilə nəticələnmişdi; hərbi əməliyyatlar nəticəsində insan itkisi və miqrasiya prosesi dövlətin qarşısında təxirəsalınmaz ciddi vəzifələr yaratmışdı.

Görkəmli dövlət xadimi Heydər Əliyevin cəbhə bölgələrinə səfərləri erməni faşizminə qarşı mübarizənin təşkilində mühüm faktiki qərarların qəbul edilməsinə səbəb olmuşdur. Ordunun hazırlığı, döyüş mövqelərinin və ordunun təchizatı ilə yerində tanışlıq, həmçinin düşmənin fəaliyyəti barədə kəşfiyyat məlumatları dövlət başçısının diplomatik, hərbi-siyasi sahələrdə qərarlar verməsində

* *Məqalə 8 may 2021-ci ildə Bakı Dövlət Universitetində təşkil edilmiş "Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu" adlı Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş respublika elmi konfransında "Heydər Əliyevin erməni faşizminə qarşi mübarizəsi: demoqrafik problemlərin tənzimlənməsi üçün həyata keçirilən tədbirlər" mövzusunda məruzə əsasında hazırlanmışdır.*

əsas olmuşdur. Bununla da, Azərbaycan ordusunun cəbhədə vahid komandanlıq ilə həyata keçirilən hərbi əməliyyatları işğal edilmiş bir sıra ərazilərin azad edilməsi ilə nəticələnir. 1993-cü ilin payızından 1994-cü ilin yazına qədər davam edən bu əməliyyatlar nəticəsində Ermənistan hərbi birləşmələri ciddi itkilər verir və əvvəllər olduğu kimi yenə atəşkəs haqqında danışıqlar başlayır. Lakin bu dəfə əvvəlki danışıqlardan fərqli olaraq beynəlxalq qurumların və böyük dövlətlərin vasitəçiliyi ilə 1994-cü ilin may ayında Atəşkəs haqqında Bişkek protokolu imzalanır.

Həmin dövrdə həqiqətən də bir müddət atəşkəsə əməl edilir. Heydər Əliyev 1994-cü il oktyabrın 8-də Azərbaycan Silahlı qüvvələrinin 3-cü ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitqində bu barədə demişdir ki, "*... Ermənistanla Azərbaycan arasında aparılan danışıqlar nəticəsində, Rusiya hökumətinin vasitəciliyi nəticəsində, ATƏM taşkilatının Minsk qrupunun vasitəciliyi nəticəsində mayın 12-də atəskəs haqqında saziş əldə edilmişdir. Beş aya yaxındır ki, bu sazişə riayət olunur, atəşkəs rejimi davam edir. Cəbhələrdə artiq atəş yoxdur və bu, altı ildən bəri gedən müharibədə ilk belə uzunmuddətli atəşkəsdir...*" [6, s.375].

Bişkek protokolu hərbi əməliyyatların dayandırılması* ilə yanaşı günahsız mülki insanların qətlinin, hələ tam formalaşmamış Milli orduda qırğınların qarşısını aldı. Lakin erməni hərbi birləşmələrinin Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində demoqrafik proseslərdə yaranan neqativ hallar sonrakı illərdə öz mənfi təsirini göstərməyə davam etdirdi.

Ümumilikdə 1991-1994-cü illərdə 20 min insan qətl edilmiş, həmçinin 11 min nəfər hərbiçi şəhid olmuş, 1 milyona yaxın insan qaçqın və məcburi köçkün düşmüşdür. İnsan və torpaq itkisinin qarşısını almaq üçün ciddi qərarlar vermək vacib idi. Məhz bu baxımdan Heydər Əliyevin apardığı siyasət xalqın genefondunun qorunmasında mühüm əhəmiyyət daşıdı.

Müharibənin yaratdığı demoqrafik böhran və ona qarşı tədbirlər. Göstərilən səbəblər demoqrafik prosesinin müsbət tərəfə dəyişdirilməsi və tarixi demoqrafik proseslərin tədqiqinə dövlət tərəfindən xüsusi diqqət göstərilməsi ilə nəticələndi. Bu zaman müharibə nəticəsində ziyan çəkmiş əhalinin, ordunun – döyüşən əsgərlərin, yaralıların, şəhidlərin və onların ailələrinin problemləri təxirəsalınmaz tədbirlərin görülməsini zəruri etmişdir.

Bütünlükdə demoqrafik proseslərin tənzimlənməsi "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası" ilə başlayır. 1999-cu il dekabrın 9-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən imzalanmış sərəncamla təsdiq edilmiş Konsepsiyanın mühüm xüsusiyyətlərindən biri demoqrafiya sahəsində dövlət siyasətinin əsas məqsədinin, vəzifələrinin və prinsiplərinin açıqlanmasıdır. Sənədin təhlili demoqrafik proseslərlə sıx əlaqədə olan sosial həyat, səhiyyə xidməti, təhsil səviyyəsi, ideologi iş və digər sahələrin dövlətin milli prioriteti kimi elan edildiyini göstərir. Konsepsiya Azərbaycanın müasir əhali problemlərinin tarixi köklərinin öyrənilməsi üçün tarixi-demoqrafik tədqiqatları (deportasiya, soyqırımları v.d.) zəruri etmişdir. Dövlət siyasətinin əsas prioritetləri sırasında əhalinin demoqrafiya sahəsində biliklərinin artırılması, demoqrafiyanın tədrisi və elmi tədqiqat işlərinin gücləndirilməsi proseslərinin tənzimlənməsini nəzərdə tutulurdu.

Konsepsiyanın qəbulundan sonra Azərbaycan əhalisinin sayının artımı, sağlam və təhsilli nəslin yetişdirilməsi istiqamətində mühüm işlər görülmüşdür. Əhali sakinliyi, təhsil siyasəti, gənclər siyasəti və digər məsələlərlə əlaqədar qəbul edilən qərarlar demoqrafik problemlərin həllinə, onların davamı olaraq isə həm də ordu quruculuğuna mühüm təsir etmişdir.

Əhalinin artımı. Yuxarıda göstərilən tədbirlər nəticəsində əhalinin artımı və ordunun sayının dəyişməsinə nəzər salaq.

Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyasında demoqrafik vəziyyətin qiymətləndirilməsi zamanı statistik faktlara müraciət edilmişdir. Sənəddə göstərilir ki, əhalinin hər 1000 nəfərinə düşən ölüm səviyyəsi 1990-1994-cü illərdə, yəni atəşkəs dövrünədək 6,0 nəfərdən 7,3 nəfərədək qalxmış və ya 21,7 faiz artmışdır [3]. Atəşkəsdən sonra isə ölüm halları kəskin azalmış, 2000-ci ildə bu rəqəm 5,9 nəfər olmuşdur. Atəşkəs nəticəsində insan qırğınının dayandırılması ilə yanaşı, körpə ölümünün qarşısını almaq üçün də səhiyyə sahəsində ciddi tədbirlər görülmüşdür. Ən mühüm

* *Elmi ədəbiyyatda Bişkek protokolundan sonrakı dövr - 1994-2020-ci illər "Azəşkəs dövrü" adlanır. Lakin bu dövrdə də Ermənistan dövləti həm sərhəddən, həm də işğal edilmiş ərazilərdən Azərbaycanın digər yaşayış məskənlərini daim atəşə tutmuş, müxtəlif təxribatlar həyata keçirmiş – Atəşkəs rejimini pozurdular.*

addım isə 1 yaşadək ölən uşaqlar arasında ölümün əsas səbəblərinin araşdırılması və onların aradan qaldılması üçün dövlət səviyyəsində tədbirlərin görülməsi olmuşdur. 1990-cı ildə 1 yaşına qədər hər 1000 nəfərdən 23 nəfəri öldüyü halda, 1995-ci ildə 23,5 nəfər, görülən tədbirlər nəticəsində 2000-ci ildə 16,4 nəfərə, 2005-ci ildə 11 nəfərə qədər azalmışdır. 5 yaşına qədər uşaqlar arasında da ölüm hallarında ciddi azalma baş vermişdir. 1990-cı ildə hər 1000 nəfər arasında ölənlərin sayı oğlanlar arasında 43,5 nəfərdən 14,7 nəfərə, qızlar arasında isə 37,2 nəfərdən 11,2 nəfərə qədər azalmışdır [4].

Heydər Əliyev tərəfindən genefondun qorunması, əhalinin sosial-iqtisadi rifahının yaxşılaşdırılması, səhiyyə xidmətinin təşkili istiqamətində görülən bütün tədbirlər nəticəsində 1995-ci il ilə müqayisədə 2005-ci ildə ümumi əhali artımı 7643,5 min nəfərdən 8447,4 min nəfərə qədər artmışdır. 2010-cu ildə isə 8997,6 min nəfər olmuşdur [4].

Əhalinin sayında mühüm göstəricilərdən biri döyüş qabiliyyətli (səfərbərliyə cəlb edilən) kişilərin sayının artmı və onların sağlamlığıdır. Əhali siyahıyaalma materiallarına və statistik məlumatlara əsasən 1989-cu ildə səfərbərlik yaşında (18-35 yaş) olan kişilərin sayı 1302,7 min nəfər, 1999-cu ildə 1313,4 min nəfər, 2009-cu ildə 1646,2 min nəfər, 2019-cu ildə 1610,1 nəfər idi [5].

Ordunun gücləndirilməsi.

"*Silahlı Qüvvələr, ordu hər bir müstəqil dövlətin əsas atributlarından biridir. Ordu olmalıdır, ordu yaranmalıdır. Əgər müharibə olmasa da, torpaqlarımıza heç kəs təcavüz etməsə də, Azərbaycanın müstəqilliyini, suverenliyini təmin etmək üçün onun qüdrətli ordusu olmalıdır*"

Heydər Əliyev [6, s. 375].

Genefondun qorunmasında mühüm hadisə olan Bişkek protokolundan sonra orduda qırğınların dayandırılması, ordunun gücləndirilməsi, hərbiçi kadrların hazırlanması və maddi texniki bazanın təminatı sahəsində görülən tədbirlər nəticəsidə ciddi keyfiyyət dəyişiklikləri başladı. Ordu quruculuğunda keyfiyyət və kəmiyyət dəyişiklikləri müxtəlif qoşun növlərinin təşkil edilməsindəki problemləri də aradan qaldırdı.

Ordunun sayı və tərkibi barədə təhlükəsizlik səbəbindən qoşun növləri və ordunun sayı barədə dəqiq məlumatlar əldə etmək mümkün deyildi. Lakin dünya dövlətlərinin ordusu barədə beynəlxalq bazalardan əldə etdiyimiz məlumatlara görə, Azərbaycan ordusunda 1994-cü ildə ümumi qoşun sayı 56 min nəfərdən ibarət idi. Onlardan 49 min nəfəri quru qoşunlarında, 3 min nəfəri donanmada, 2 min nəfəri Hərbi Hava Qüvvələri və 2 min nəfəri Hava hücumçundan müdafiə qoşunlarında xidmət edirdi [10]. 2007-ci ildə isə ümumi heyət 95 min nəfər olmuşdur: 85 min nəfər quru qoşunları, 8 min nəfər Hərbi Hava Qüvvələri və Hava hücumçundan müdafiə qoşunları, 2 min nəfər isə Hərbi Dəniz Qüvvələri. Bununla yanaşı, Azərbaycan ordusunun heyətinə 2500 nəfər Milli Qvardiyanın, 120 min nəfər Daxili qoşunların və 5 min nəfər sərhəd qoşunlarının heyəti də daxildir [1].

2020-ci ildə Azərbaycan ordusunun aktiv kadrlarının sayı 126 min nəfər, ehtiyat heyətin sayı 300 min nəfər (ümumi 426 min nəfər) olmuşdur [7]. Eyni dövr üçün işğalçı Ermənistan dövlətinin hərbçilərinin aktiv heyəti 45 min, ehtiyatda olanların sayı 200 min nəfər (ümumi 245 min nəfər) idi. "Global Fire Power" adlı araşdırma şirkətinin 2021-ci ilin martında apardığı araşdırmada dünya dövlətlərinin hərbi gücünü göstərən reytinqində Azərbaycan ordusu 140 dövlət arasında 64-cü sırada yer tutmuşdur. Hazırda 145 dövlət arasında 59-cu sıradadır [7, 05.04.2021, 24.04.2024].

Göründüyü kimi, Heydər Əliyevin həyata keçirtdiyi siyasət nəticəsində həm müxtəlif qoşun növləri yaradılmış, həm yüksək ixtisaslı hərbçi kadrlar hazırlanmış, həm də heyətin sayı artmışdır (1994-cü il ilə müqayisədə 2 dəfədən çox).

1994-cü ildən başlayaraq güclü potensiala malik ordunun hazırlanması erməni fazişminə qarşı mübarizədə dövlətin, xalqın və ordunun birliyinin nəticəsidir. Məhz bu birlik – xalqın yumruq kimi birləşməsi erməni faşizminə mühüm zərbəni vurmuşdu: Ali baş komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin payızında həyata keçirilən "Dəmir yumruq" əməliyyatı nəticəsində 44 gün ərzində güclü potensiala malik Azərbaycan ordusu erməni faşizmini məhv etdi.

Nəticə. Heydər Əliyev irsi dünya və Azərbaycan tarixinin, xüsusilə müasir tariximizin zəngin mənbə bazasıdır: onun nəzəri və təcrübi fəaliyyəti erməni faşizminə qarşı mübarizənin xırda detallara qədər düşünüldüyünü, illərlə təşkil edildiyini sübut edir. Bu mübarizədə əsas amil isə insan potensialı idi. Müharibə nəticəsində yaranan demoqrafik problemlərin aradan qaldırılması, əhalinin sosial rifahının gücləndirilməsi ölkənin sosial-iqtisadi və siyasi inkişafına müsbət təsir göstərmişdir. Bu səbəb-

dən də, Heydər Əliyev tərəfindən həyata keçirilən siyasi, sosial-iqtisadi və hərbi tədbirlərin davam etdirilməsi nəticəsində Azərbaycan Qafqazda siyasi-iqtisadi gücünə, insan potensialına, güclü ordusuna görə lider ölkəyə çevrilmişdir.

ƏDƏBİYYAT

1. Azerbaijan Military Personnel. / https://www.globalsecurity.org/military/world/azerbaijan/personnel.htm. [Müraciət tarixi: 05.04.2021].
2. Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı. s.3198-3224 // Azərbaycan Respublikasının Qanunvericilik toplusu. 2004, № 11 (89). – 3419 s. https://e-qanun.az/framework/5685 [Müraciət tarixi: 23.04.2024].
3. Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası. 09.12.1999. s.2921-2927 // Azərbaycan Respublikasının Qanunvericilik toplusu. 1999, № 12. - 3008 s.
4. Azərbaycanın demoqrafik göstəriciləri. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 9N-li müəssisə, 2019. –512 s.
5. Əhalinin cins və yaş qrupları üzrə bölgüsü. Azərbaycanın demoqrafik göstəriciləri // https://www.stat.gov.az/source/demoqraphy/az/001_7-10.xls. [Müraciət tarixi: 23.04.2024].
6. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 46 cilddə. 2-ci kitab. Bakı: Azərnəşr, 1997, 604 s.
7. "Global Fire Power". Qlobal hərbi güc reytinqi. Analitik resurs. https://www.globalfirepower.com/country-military-strength-detail.php?country_id=azerbaijan. [Müraciət tarixi: 05.04.2021].
8. Heydər Əliyev irsinin aktual məsələləri. Bakı, "Birol Group" MMC 2023, 432 s.
9. Heydər Əliyev. Elmi red.Kərim Şükürov. – Bakı: "Şəqr-Qərb", 2023. 304 s.
10. Heydər Əliyevin erməni faşizminə qarşi mübarizəsi: demoqrafik problemlərin tənzimlənməsi üçün həyata keçirilən tədbirlər. 27-30 // "Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu". Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş respublika elmi konfransı. 8 may 2021. Bakı, Bakı Universiteti nəşriyyatı, 2021. http://static.bsu.az/w16/Heyd%C9%99r%20%C6%8Fliyev-98.pdf [Müraciət tarixi: 23.04.2024].
11. Jafarov T. "Bişkek protokolü (12 mayis 1994) örneğinde uluslararasi sözleşmelerin geçersizliği üzerine bir değerlendirme". Ankara Hacı Bayram Veli Üniversitesi Hukuk Fakültesi Dergisi, c. 27, sy. 4, 2023, ss. 365-90, doi:10.34246/ahbvuhfd.1270390.
12. Zəfər epopeyası. Qarabağ Azərbaycandır. Kollektiv monoqrafiya. - Bakı: "Azəri Poliqrafiya" nəşriyyatı, 2021. - 38 ç.v.
13. История Отечественной войны. Фактор личности (27 сентября – 10 ноября 2020 года). Баку, «Шарг-Гарб», 2022, 444 стр.
14. Кваша А.Я. Демографическая политика. - Москва: 1981.

САИДА КУЛИЕВА
доцент Бакинского Государственного Университета

БОРЬБА ГЕЙДАРА АЛИЕВА ПРОТИВ АРМЯНСКОГО ФАШИЗМА: ЧЕЛОВЕЧЕСКИЙ ФАКТОР И ЗАЩИТА ГЕНОФОНДА

Основная цель статьи - исследовать роль выдающегося государственного деятеля Гейдара Алиева в придании особого значения человеческому фактору в борьбе с армянским фашизмом. С этой целью к исследованиям была привлечена государственная программа, созданная для решения демографических проблем, вызванных войной и защиты генофонда. На основании полученных материалов был сделан вывод, что в результате продолжения мер, осуществленных Гейдаром Алиевым, Азербайджан стал ведущим государством в регионе и армянский фашизм был уничтожен на Кавказе.

Ключевые слова: Гейдар Алиев, население Азербайджана, азербайджанская армия, борь-

ба азербайджанского народа, армянский фашизм, рост населения, историческая демография, защита генофонда.

SAIDA KULIEVA
Associate Professor of Baku State University

HEYDAR ALIYEV'S STRUGGLE AGAINST ARMENIAN FASCISM: HUMAN FACTOR AND PROTECTION OF GENE POOL

The main purpose of the article is to study the role of outstanding statesman Heydar Aliyev in giving special importance to the human factor in the fight against Armenian fascism. For this purpose, the state program created to solve demographic problems caused by the war and to protect the gene pool was involved in the research.

Based on the materials obtained, it was concluded that as a result of the continuation of the measures carried out by Heydar Aliyev, Azerbaijan became a leading state in the region and Armenian fascism was destroyed in the Caucasus.

Keywords: Heydar Aliyev, population of Azerbaijan, Azerbaijani army, struggle of the Azerbaijani people, Armenian fascism, population growth, historical demography, protection of the gene pool.

Məqalənin redaksiyaya daxil olduğu tarix:24 aprel 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: Akademik Yaqub Mahmudov.